Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# Sahibkarlıq sahəsində aparılan yoxlamalar haqqında

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 2018-ci il 28 dekabr tarixli və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 2019-cu il 12 fevral tarixli qanunlara əsasən 2021-ci il yanvarın 1 tarixinədək sahibkarlıq sahəsində aparılmasına yol verilən yoxlamaların siyahısına gömrük auditi və maliyyə bazarları sahəsində aparılan yoxlamalar əlavə edilib.

Beləliklə, hazırda 2021-ci il yanvarın 1 tarixinədək sahibkarlıq sahəsində aparıla bilən yoxlamaların siyahısına aşağıdakılar aiddir:

1. Vergi yoxlamaları;
2. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən dərman vasitələrinin keyfiyyəti, təhlükəsizliyi qaydalarına riayət edilməsi və qida məhsullarının təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi ilə bağlı yoxlamalar;
3. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı həmin Qanunla müəyyən edilmiş nəzarət orqanları tərəfindən həyata keçirilən yoxlamalar;
4. İnsanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar;
5. Gömrük auditi;
6. Maliyyə bazarları sahəsində aparılan yoxlamalar.

Daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı linklərdən istifadə oluna bilər:

http://e-qanun.az/framework/31093
http://e-qanun.az/framework/41138
http://e-qanun.az/framework/41525